## LƏTİF KƏRİMOV HAQQINDA GÖRKƏMLİ ŞƏXSLƏRİN FİKİRLƏRİ

Lətif Kərimov Azərbaycan xalça sənətini dünya miqyasında tanıdan böyük sənətkar və alimdir. Onun irsi xalqımızın milli sərvətidir.

**Heydər Əliyev,**
**Azərbaycan Respublikasının Ümummilli Lideri**

Dünya mədəni irs xəzinəsində şərəfli mövqeyə malik Azərbaycan xalça mədəniyyətinin hazırkı inkişaf səviyyəsinə yüksəlməsində Lətif Kərimovun təqdirəlayiq xidmətləri vardır.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Lətif Kərimovun zəngin irsi Azərbaycan xalça sənətinin dünyada tanıdılmasında mühüm rol oynayır.

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Lətif Kərimovun xalçaları rənglərin poeziyası, naxışların dili ilə danışan sənət əsərləridir.

**Rəsul Rza,**
**Xalq şairi**

Lətif Kərimov milli ornamentlərimizi yaşadan və gələcək nəsillərə çatdıran böyük sənətkardır.

**Səttar Bəhlulzadə,**
**Xalq rəssamı**

Lətif Kərimov təkcə xalçaçı deyildi. O, Azərbaycan mədəniyyətinin canlı ensiklopediyası idi.

**Anar,**
**Xalq yazıçısı**

Lətif Kərimov Azərbaycan xalça sənətini dünya miqyasında tanıdan ən böyük tədqiqatçılardan biridir.

**Rasim Əfəndi,**
**akademik**

Lətif Kərimov müasir Azərbaycan xalçaşünaslıq elminin banisi hesab olunur.

**Azərbaycan Milli Xalça Muzeyi**

Lətif Kərimovun əsərləri və elmi irsi hər bir xalça rəssamı üçün məktəbdir.

**Eldar Mikayılzadə,**
**Xalq rəssamı**

Lətif müəllim xalçanın dilini, tarixini və ruhunu hamıdan yaxşı bilirdi. Onun yaradıcılığı gələcək nəsillər üçün məktəbdir.

**Mikayıl Abdullayev,**
**Xalq rəssamı**

Lətif Kərimov bizim xalça sənətimizin canlı ensiklopediyası idi.

**Kamil Əliyev,**
**Xalq rəssamı**

Lətif Kərimov Azərbaycan ornamental sənətinin inkişafında böyük xidmətləri olan görkəmli nəqqaşdır.

**Mirzə Nəcəfov,**
**Əməkdar incəsənət xadimi**

Lətif Kərimov Azərbaycanda xalçaçılıq elminin banisidir. Azərbaycan xalça sənətinin elmi əsaslarla öyrənilməsi və peşəkar xalçaçı rəssamların yetişdirilməsi məhz onun adı ilə bağlıdır. Lətif müəllimlə ilk tanışlığım tələbəlik illərinin sonunda Xalça Muzeyinə təcrübəyə göndərilməyimlə başladı və ilk tanışlıq, bu təcrübə taleyimdə həlledici rol oynadı.

**Röya Tağıyeva,**
**professor**

Bu gün Azərbaycanda xalça sənətinin layiqli davamçıları, Lətif Kərimov kimi sənətkarların yetirmələri vardır ki, onların yaradıcılığında da ustadın dəsti-xətti özünü büruzə verir. Əlvan rəng duyumu, təkrarsız kompozisiya həlli və onların harmoniyasını ustalıqla bir araya gətirən əvəzsiz bir sənətkardır Lətif Kərimov. O, Azərbaycan xalça sənətinin təkrarı olmayan məktəbini yaradaraq, nəsillərə yadigar buraxmışdır.

**Sevinc Səbzəliyeva,**
**Naxçıvan Dövlət Xalça Muzeyinin əməkdaşı**

Xalçaçılıq xalq tətbiqi sənətinin qədim növü, xalqımızın həyatı, mənəviyyatı və yaşayış tərzi ilə sıx bağlı olan sahədir. Lətif Kərimov bu bağlılığın dərinliklərinə varmaq məqsədilə ucqar kəndlərimizə səfərlər etmiş, xalq sənətkarlarının söhbətlərinə qulaq asmış, onların işləri ilə tanış olmuş, yeri gələndə məsləhətlər vermişdir. Dekorativ-tətbiqi sənətimizin, xüsusilə xalçalarımızın el sənəti qaynaqları ilə bağlılığını, eləcə də onların bədii xüsusiyyətlərini və texnologiyalarını dərindən bildiyinə görə, xalçalarımıza, sözün əsl mənasında, ikinci ömür vermiş, onların dünya miqyasında tanıdılmasında böyük işlər görmüşdür.

***Aygün Abasova,***
***Lətif Kərimov adına Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin şöbə müdiri***

Azərbaycanın mədəniyyət və incəsənət tarixində elə insanlar var ki, adları çəkiləndə gördüyü işlər, yaratdığı sənət nümunələri kino lenti kimi gözlərimiz önündən gəlib keçir. Belə sənətkarlardan biri də Azərbaycan xalçaçılığının inkişafında böyük xidmətləri olmuş Lətif Kərimovdur. L.Kərimov incəsənət tariximizdə çox nadir şəxsiyyətlərdəndir ki, yaradıcılığında praktika ilə nəzəriyyəni paralel inkişaf etdirmişdir.

**Vahid Məhərrəmov,**
**jurnalist**